# SDU Beynəlxalq Tələbələr üçün "Parlaq Gələcək Təqaüd" Proqramını elan edir

Sumqayıt Dövlət Universiteti beynəlxalq tələbələr üçün "Parlaq Gələcək Təqaüd" Proqramının başlamasını məmnuniyyətlə elan edir. Proqram Sumqayıt Dövlət Universitetində bakalavriat və magistratura səviyyələrinin müəyyən olunmuş ixtisasları üzrə təhsil almaq istəyən 100 beynəlxalq tələbə üçün yataqxanada ödənişsiz yaşayış və tam təhsil haqqını əhatə edir. Təqaüd aşağıda qeyd olunan ixtisaslar üzrə verilir.

***Bakalavr səviyyəsi üzrə:***
- Kimya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Proseslərin avtomatlaşdırılması mühəndisliyi
- İnformasiya texnologiyaları
- Kompüter mühəndisliyi
- Riyaziyyat
- Fizika
- Kimya
- Biologiya
- Riyaziyyat müəllimliyi (Tədris ingilis dilində)
- Kimya müəllimliyi (Tədris ingilis dilində)
- Fizika müəllimliyi
- Biologiya müəllimliyi

***Magistratura səviyyəsi üzrə:***
- Kimya mühəndisliyi (Polimerlərin kimyəvi texnologiyası)
- Kimya (Üzvi kimya)
- Proseslərin avtomatlaşdırılması mühəndisliyi (Texnoloji proseslərin və istehsalın avtomatlaşdırılması)
- Biologiya (Mikrobiologiya)
- Kompüter elmləri (Verilənlərin təhlili)
- Kompüter mühəndisliyi (Kompüter mühəndisliyi)
- İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi (Kibertəhlükəsizlik)
- Elektrik mühəndisliyi (Elektrik təchizatının optimallaşdırılması və modelləşdirilməsi)
- Elektroenergetika mühəndisliyi (Elektroenergetika)
- Biznesin idarə edilməsi (Maliyyə üzrə)
- Biznesin idarə edilməsi (Təhsil üzrə menecment)

**Təqaüd haqqında məlumat:**
- Say: 100 nəfər
- Əhatə dairəsi: tam təhsil haqqı və yataqxanada ödənişsiz yaşayış
- Müddəti : bakalavriat üçün – 4 ilə, magistratura üçün – 2 ilə qədər
- Tədris dili**:** Azərbaycan və ingilis dilləri

**Qeyd**: Azərbaycan dili bilikləri kifayət etməyən uğurlu namizədlərə 1 il müddətində universitetdə pulsuz Azərbaycan dili hazırlıq kursu təqdim olunacaq.

**Müraciət Prosesi:**
1. Elektron ərizə forması: www.portal.edu.az saytında onlayn ərizəni doldurun.
2. Öz akademik nailiyyətləriniz, karyera hədəfləriniz, və SDU-nu nəyə görə seçməyinizə dair şəxsi bəyanatınızı (maksimum 500 söz) "AD/soyad: "SDU Parlaq Gələcək Təqaüd" müraciəti başlığı ilə icsp@sdu.edu.az ünvanına göndərin.

**Təqaüd üçün müraciətin son tarixi**: 10 sentyabr 2025
**Hazırlıq kursuna müraciət üçün son tarix**: 25 sentyabr 2025

**Əlaqə**: icsp@.sdu.edu.az